# Ölkəmizin inkişafının təməli qoyulduğu gün

*Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 14 iyul 1969-cu ildə keçirilən plenumunda Heydər Əliyevin birinci katib seçilməsi ölkəmizin tarixində dönüş nöqtəsinə çevrildi. O vaxtdan başlayaraq bütün sahələrdə həyata keçirilən islahatlar və tədbirlər respublikamızın inkişafını təmin edən strategiyanın əsası oldu. Regionların tərəqqisi üçün reallaşan çoxsaylı layihələr inkişafa müstəsna töhfə verməklə xalq tərəfindən məmnunluq hissi ilə qarşılanırdı. Şəki rayonunda həmsöhbət olduğumuz ictimai fəallığı ilə seçilən bir qrup ziyalı o dövrdən başlanan və bu gün də davam edən tərəqqi ilə bağlı fikirlərini bölüşdülər.*

**- Ümummilli lider Heydər Əliyevin respublikamızda birinci dəfə hakimiyyətə gəldiyi 14 iyul 1969-cu il ölkəmizin tarixində nə kimi hadisələrlə zəngin olub?**



**AMEA-nın Şəki Regional Elmi Mərkəzinin direktoru, fizika üzrə fəlsəfə doktoru, dosent Yusif Şükürlü:**

- XX əsrin görkəmli tarixi şəxsiyyətlərindən olan Heydər Əliyev bütün ömrü boyu xalqımızın inkişafı və xoşbəxtliyi üçün çalışaraq Azərbaycanı dünyaya tanıdıb. Bu gün ölkədə elə bir sahə yoxdur ki, orada Heydər Əliyevin quruculuq fəaliyyətinin fundamental nəticələri aydın şəkildə görünməsin. İstər sovet hakimiyyəti illərində, istərsə də müstəqillik dövründə Heydər Əliyevin elm siyasəti milli quruculuq siyasətinin əsas istiqamətlərindən birini təşkil edib. Bütün fəaliyyəti xalqa xidmət nümunəsi olan Ulu Öndər elmimizin inkişafında böyük xidmətlər göstərib və alimə, ziyalıya həmişə yüksək qiymət verib. Elmə göstərdiyi həssas münasibət, alimlərimizə verdiyi mənəvi stimul onları yeni-yeni nailiyyətlərə ruhlandırıb.

Ölkəmizdə elmin, elm ocaqlarının yeni yüksəlişi məhz Ulu Öndərin adı ilə bağlı oldu. 1970-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyası onun rəhbərliyi sayəsində dünyada şöhrət qazandı, özünün kadr potensialını yaratdı, maddi-texniki bazasını möhkəmləndirdi. Həmin illərdə Azərbaycan Elmlər Akademiyasında köklü dəyişikliklər aparılmış, onun strukturu, kadr və elmi-texniki potensialında böyük irəliləyişlər əldə edilmişdir.



**Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının Şəki Rayon Komitəsinin sədri Ziyafət Xasıyeva:**

- Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqının həyatında müstəsna xidmətləri var. Respublikamıza rəhbər seçildiyi andan ölkəmizin inkişafı üçün gərgin fəaliyyətə başladı. 1969-cu ildən başlayaraq ana dilimizə qayğı artdı, dövlət qurumlarında azərbaycanlıların yüksək vəzifələrə təyin edilməsi ölkəmizin tərəqqisinin əsasını qoydu. Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi müdrik siyasətin təməlində Azərbaycanın gələcəyi naminə milli dövlətçilik düşüncəsi olan azərbaycançılıq ideologiyası qısa zaman kəsiyində öz müsbət bəhrəsini verdi. Çünki bu ideologiya əsasında böyüyən gənc nəsil dövlətçiliyə və xalqa bağlı olmaqla onun inkişafı naminə var qüvvəsi ilə çalışdı. 1970-1980-ci illərdə Ulu Öndərin təşəbbüsü ilə 15 mindən çox azərbaycanlı SSRİ-nin 170 ali məktəbində təhsil almışdır. Tarixi faktlardan bəlli olur ki, xarici universitetlərdə təhsil alan tələbələrin milli tərkibi 97.7 faiz azərbaycanlılardan ibarət olmuşdur. Müqayisə üçün qeyd edilməlidir ki, əvvəlki illərdə respublikadan kənarda təhsil almağa göndərilənlər arasında etnik azərbaycanlıların payı cəmi 40 faizə çatırdı. Ulu Öndərin müdrik siyasəti ölkəmizin müstəqilliyini bərpa etdikdən sonra Azərbaycana güclü milli kadr potensialına malik olmağa imkan vermişdir.



**Şəki Rayon Xəstəxanası Publik Hüquqi Şəxsin direktoru Məcid Əliyev:**

Müasir Azərbaycanın bütöv bir inkişaf epoxası Heydər Əliyevin adı ilə bağlıdır. 1969-cu il iyul ayının 14-də respublikaya rəhbər seçiləndə Azərbaycan keçmiş SSRİ-nin tərkibində bütün sahə və istiqamətlər üzrə geridə qalırdı. Ulu Öndərin hakimiyyətə gəlişi ilə bütün bu problemlər qısa zaman kəsiyində aradan qaldırılmağa başlandı. Bu şərəfli dövr inkişaf tariximizin qürur doğuran səhifələrinin təməli olmaqla bu gün də uğurla davam etdirildiyindən xalqımızın həyat tərzinin yaxşılaşdırılmasına geniş zəmin yaradır. Təbii ki, Azərbaycan səhiyyəsində əldə edilmiş nailiyyətlər Heydər Əliyevin adı ilə bağlıdır. Hələ sovet hakimiyyəti illərində Ulu Öndərin müdrik siyasəti və qətiyyətli rəhbərliyi sayəsində bütün mümkün tədbirlər həyata keçirilmiş, vətəndaşlara göstərilən tibbi xidmətin səviyyəsində mühüm keyfiyyət dəyişiklikləri baş vermişdi. 1970-1980-ci illərdə çoxsaylı tibb müəssisələrinin inşa edilməsi səhiyyənin inkişafı barədə aydın təsəvvür yaradır.

***Ulu Öndər Heydər Əliyev 1969-cu il iyulun 14-də hakimiyyətə gələndən sonra fədakar fəaliyyəti ilə respublikanın bütün sahələr üzrə tərəqqisini təmin etmişdir***



**Şəki Suvarma Sistemləri İdarəsinin rəisi Sabir Əhmədov:**

- Birmənalı şəkildə bildirmək istərdim ki, respublikamızda meliorasiyanın inkişafı Ümummilli Lider Heydər Əliyev hakimiyyətə gəldiyi vaxtdan başlandı. Belə ki, 1969-1982-ci illərdə suvarma-drenaj sistemlərinin yenidən qurulması sahəsində aparılan işlərin miqyası daha da genişləndirildi. Həmin dövrdə sel və daşqın sularından mühafizə məqsədilə xeyli layihələr həyata keçirilmişdir. Şin çayda 2086 p/m, Kiş çayında 3440 p/m, Zəyzid çayda 5090 p/m uzunluğunda yığma betondan mühafizə divarları qurularaq istismara verilmişdir.

Qeyd etmək istərdim ki, həmin illərdə Şəki rayonunda 1584,4 km uzunluğunda suvarma şəbəkəsi, o cümlədən 819,3 km qapalı, 358,4 km kollektor dren şəbəkəsində meliorasiya işlərinin aparılması rayonda suvarılan torpaq sahələrinin 38980 hektara çatmasına səbəb olmuşdur ki, bu da kənd təsərrüfatı məhsullarının istehsalında yüksək nailiyyətlər əldə olunmasına gətirib çıxarmışdır.



**Şəki Şəhər İcra Hakimiyyəti başçısının Orta Zəyzid kənd İƏD üzrə nümayəndəsi Xuraman Mustafayeva:**

- Tələbə vaxtlarım 1970-ci illərə təsadüf etdiyindən o dövrü yaxşı xatırlayıram. Ümummilli Lider Heydər Əliyevin respublikamıza birinci dəfə rəhbər vəzifəyə seçildikdən sonra keçirilən tədbirləri və çıxışlarını çox böyük maraqla izləyirdik. Hətta təsadüfən Bakıda rastlaşdığım vaxt da olub. O ani görüş indiyə kimi xoş bir xatirə kimi yaddaşıma həkk olunub. Tələbə yoldaşlarıma və müəllimlərimə bu unudulmaz xatirə barədə qürurla danışardım.

Ulu Öndərin qurultaylarda çıxışlarını və müxtəlif görüşlərini mütəmadi izləməklə öyrənməyə çalışardım. Ulu Öndər çox gözəl natiq idi. SSRİ dövləti üçün dövrün tələblərinə uyğun olaraq tələb olunan rus dilində də son dərəcə səlis danışırdı. Bununla yanaşı, bütün sahələri də mükəmməl bilirdi. Ona görə ki, istənilən sahə barədə geniş məlumata malik idi. Məhz tələbəlik vaxtlarından başlayaraq həmişə onunla fəxr etmişəm.

Ulu Öndər xalqa bağlı qətiyyətli idarəçilik qabiliyyəti ilə bizlərə xoş günlər bəxş etdi və xalqımızın xoşbəxtliyinin əbədi olması üçün müdrik siyasəti ilə inkişaf strategiyamızın əsasını qoydu.

Məhz bu səbəbdən də bərpaolunan müstəqilliyimizin ilk illərində düçar edildiyimiz tənəzzüldən, qardaş qırğınından və bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinmək faciəsindən qurtulmaq üçün xalqımız fikirləşmədən Ulu Öndərin hakimiyyətə qayıdışına yekdilliklə səs verdi. Bununla da respublikamızı dirçəldən Ümummilli liderimiz ən təhlükəli anda müstəqilliyimizin və xalqımızın yeganə xilaskarı olaraq ölkəmizi yeni bir inkişaf dövrünə qovuşdurdu.

**- Ulu Öndərin müdrik siyasəti nəticəsində təməli qoyulan və müvəffəqiyyətlə davam etdirilən inkişaf strategiyası hansı mərhələyə yüksəlib?**

**Məcid Əliyev:** Ümummilli Liderin rəhbərliyi ilə hazırlanaraq qəbul edilən Konstitusiyamızda hər kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ təsbit olunmuşdur. Ulu Öndər Heydər Əliyevin müdrikcəsinə müəyyənləşdirdiyi sosial siyasət Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Bu siyasətin ən böyük uğurlarından biri səhiyyəmizin keçdiyi inkişaf yoludur ki, xalqımız bunu böyük razılıqla qarşılayır.

Dövlət başçısının iştirakı ilə təməli qoyulan və 2011-ci ildə istifadəyə verilən müasir tipli rayon xəstəxanası 190 mindən çox əhali ilə yanaşı, ətraf rayonlardan müraciət edən sakinlərə həm ambulator, həm də stasionar tibbi yardım göstərir. İcbari Tibbi Sığorta sisteminə keçidlə əlaqədar xəstəxanada yeni struktur bölmələri yaradılıb.

**Xuraman Mustafayeva:** Uzun illər seçki məntəqələrində çalışdığıma və daim insanların arasında olduğuma görə deyə bilərəm ki, xalqımızın Ulu Öndər Heydər Əliyevə olan sonsuz rəğbəti, böyük inamı olub. Çünki hər kəs bu dahi şəxsiyyətin gördüyü misilsiz işləri və onun nəticələrini yetərincə görür və yüksək qiymətləndirirdi.

Bu bir həqiqətdir ki, hər bir xalqın arzusu azad və demokratik şəraitdə keçirilən seçkilərlə müəyyənləşir. Bu mənada 1993-cü ilin oktyabr ayından başlayaraq bu vaxta qədər keçirilən bütün Prezident, parlament və bələdiyyə seçkilərində və referendumda xalq inandığı şəxsə və onun siyasətinə səs verib və bütün seçkilərdə Ulu Öndər Heydər Əliyev və onun siyasi kursu yekdilliklə dəstəklənib. Ümummilli Liderimizin müdrik siyasəti sayəsində ölkəmizin daim inkişaf etməsi və dünya birliyində rolunun durmadan artması inkişafımızın məntiqi nəticəsi kimi xalq tərəfindən yüksək dəyərləndirilir. Tarixən ən böyük problemimiz olan Qarabağ münaqişəsinin möhtərəm Prezidentimiz İlham Əliyevin "Dəmir yumruğu" sayəsində xalqımızın xeyrinə həll olunması bu müdrik siyasi kursun əbədiliyinin məntiqi göstəricisidir.

**Sabir Əhmədov:** Ulu Öndərimizin layiqli davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyevin qətiyyətli rəhbərliyi nəticəsində bu gün respublikada meliorasiya və su təsərrüfatı sahəsində nəzərdə tulan fundamental layihələr icra edilir. Hazırda istismar olunan bütün meliorasiya və irriqasiya sistemlərinin, qurğuların normal fəaliyyət göstərmələri üçün müvafiq tədbirlər görülür. Qeyd etmək istərdim ki, 2006-2024-cü illər ərzində əkin sahələrinin, həyətyanı sahələrin, əhalinin içməli və məişət məqsədləri üçün Şəki rayonu ərazisində Prezidentin müvafiq sərəncamları ilə dövlət vəsaiti hesabına 156 ədəd subartezian quyusu qazılaraq istismara verilib.

**Ziyafət Xasıyeva:** Ötən illər ərzində xalqımız Ümummilli Lider Heydər Əliyevin azərbaycançılıq məfkurəsinə sadiq qalaraq bu idealogiyanın reallaşması naminə var qüvvəsi ilə çalışır. Bunun nəticəsi olaraq xalqımız bir nəfər kimi Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi sayəsində "Dəmir yumruq" ətrafında birləşərək 30 ildən çox davam edən Qarabağ savaşının Zəfər qələbəsi ilə bitməsinə nail oldu və ölkəmizin ərazisində uzun illər sürən erməni separatizminə birdəfəlik son qoyaraq müstəqil respublikamızın suverenliyi tam bərpa edildi.

Respublikamızda 1969-cu il iyulun 14-də təməli qoyulmaqla uğurla həyata keçirilən müdrik siyasətin nəticəsidir ki, xalqımız bütün sahələr üzrə tərəqqi etməklə dövlətə və dövlətçiliyə yüksək bağlıq nümayiş etdirir.

**Yusif Şükürlü:** Ulu Öndər Heydər Əliyevin müdrik siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. 2016-cı ildə təsdiqlənmiş "Elm haqqında" Qanunun tələblərinə müvafiq olaraq AMEA-nın strukturuna daxil olan elmi bölmələr, müəssisə və təşkilatlarda olduğu kimi, AMEA-nın Şəki REM-də də struktur islahatları aparılmış və uğurlu nəticələr əldə edilmişdir. Bu səbəbdən də mərkəzin elmi və elmi-təşkilati fəaliyyəti daha uğurlu olmuşdur. Ötən il mərkəzdə 7 istiqamətdə, 9 şöbədə, 8 mövzu üzrə elmi-tədqiqat işləri yerinə yetirilmişdir. Belə ki, "Azərbaycan Respublikasında Baramaçılığın və İpəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə AMEA-nın Rəyasət Heyətinin qərarı ilə təsdiqlənmiş Tədbirlər planına uyğun mühüm işlər görülüb.

**Mikayıl NƏRİMANOĞLU,**
**"Respublika".**